*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (4) 2024*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:12.12.2023*
*Kabul tarihi |Accepted:25.06.2024*
*Yayın tarihi |Published:25.08.2024*

**Solmaz Məhərrəmova**

*https://orcid.org/0009-0007-8975-6566*
*Doctor of Historical Sciences, Great Scientific Worker, Azerbaijan National Academy of Sciences, Institute of History and Ethnology named after A. A. Bakykhanov, Azerbaijan, solmaz-xanim@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Məhərrəmova, S. (2024). XIX-XX əsrin əvvəllərində Qarabağ və Şərqi Zəngəzurda xalq bayramları və mərasimləri (etnoqrafik-çöl tədqiqatları əsasında). *Akademik Tarih ve Düşünce Dergisi*, *11* (4), 2716-2740. https://doi.org/10.46868/atdd.2024.776

# XIX-XX əsrin əvvəllərində Qarabağ və Şərqi Zəngəzurda xalq bayramları və mərasimləri (etnoqrafik-çöl tədqiqatları əsasında)

***Xülasə***

*Məqalədə 19 ve 20 əsrin əvvəllərində Qarabağ və Şərqi Zəngəzurda xalq bayramları və mərasimlərindən bəhs edilir. Çoxəsrlik tarixə malik mənəvi mədəniyyətimizin mühüm tərkib hissəsini təşkil edən xalq bayramları rəngarəngliyi, kütləvi xarakteri və dərin məzmunu ilə daim diqqəti cəlb etmişdir. Bayramlar məzmununa görə mövsümi və dini bayramlara bölünür. Azərbaycanda, onun ayrılmaz parçası hesab edilən Qarabağ və Şərqi Zəngəzurda, eləcə də bütün türk xalqları arasında qədim tarixə malik Novruz kimi mövsümi bayramla yanaşı, Ramazan (Orucluq) bayramı, Qurban bayramı kimi dini bayramlar habelə Məhərrəmlik mərasimi keçirilmiş və indi də xalqımızın əziz bayramları kimi qeyd edilməkdədir. Bölgənin maldar əhalisi arasında hazırda unudulmuş "Xıdır Nəbi" mərasimi "qurdların bayramı" adlandırılmış və fevral ayının ortalarında 3 gün qeyd edilmişdir. Məqalədə bölgə əhalisinin bayramlara hazırlığı, bayramlarla bağlı adət-ənənələr, ayinlər, fallar və s. haqqında geniş məlumat verilir. Məqalə zəngin çöl- etnoqrafik materialları, eləcə də tədqiq olunan mövzu ilə bağlı dövri nəşrlərdə əksini tapmış tədqiqatlar əsasında yazılmışdır.*

***Açar sözlər:*** *Qarabağ, Novruz bayramı, Qurban bayramı, etnoqrafik*

BY NC Creative Commons Licence

# Festivals and Ceremonies Celebrated in Karabakh and Eastern Zangezur at the Turn of the 19th and 20th Centuries: An Ethnographic Field Study

***Abstract***

*This article explores the festivals and ceremonies celebrated in Karabakh and Eastern Zangezur at the turn of the 19th and 20th centuries. Folk festivals, an integral component of our century-old spiritual heritage, have always captured attention with their diversity, collective nature, and profound significance. These festivals are categorized into national and religious holidays based on their content. In Azerbaijan, particularly in Karabakh and Eastern Zangezur—regions with an ancient cultural lineage shared with all Turkic peoples—seasonal festivals such as Nowruz and religious observances including Ramadan (Oruç, the fasting month) and Eid al-Adha (Kurban Bayramı, the Feast of Sacrifice) are prominent. Additionally, Muharram rituals continue to be celebrated as sacred occasions by the Turkish people. Among these traditions, the "Hıdır Nabi" ceremony, known colloquially as the "festival of the wolves or Hıdır Nabi Festival," is gradually fading from memory and is observed over three days in mid-February. The article delves into the preparations for these festivals, the associated traditions, rituals, and astrological beliefs. It is based on rich ethnographic fieldwork and literature sources related to the subject matter.*

***Keywords:*** *Karabakh, Nowruz, Eid al-Adha, ethnographic*

## Giriş

Çoxəsrlik tarixə malik mənəvi mədəniyyətimizin mühüm tərkib hissəsini təşkil edən xalq bayramları rəngarəngliyi, kütləvi xarakteri və dərin məzmunu ilə daim diqqəti cəlb etmişdir. Bayramlar məzmununa görə mövsümi və dini bayramlara bölünür. Azərbaycanda, onun ayrılmaz parçası hesab edilən Qarabağ və Şərqi Zəngəzurda, eləcə də bütün türk xalqları arasında qədim tarixə malik Novruz kimi mövsümi bayramla yanaşı, Ramazan (Orucluq) bayramı, Qurban bayramı kimi dini bayramlar habelə Məhərrəmlik mərasimi keçirilmiş və indi də xalqımızın əziz bayramları kimi qeyd edilməkdədir. Bölgənin maldar əhalisi arasında hazırda unudulmuş “Xıdır Nəbi” mərasimi “qurdların bayramı” adlandırılmış və fevral ayının ortalarında 3 gün qeyd edilmişdir.

## 1.Novruz bayramı

Bütün türk dünyasında Novruz bayramı çox əziz və möhtəşəm bir bayram kimi iki min ildən də artıq tarixlə ümumxalq şənliyi kimi hər ilin mart ayında böyük təntənə ilə qeyd edilir. Günəşə sitayişlə bağlı olan və yerdəki atəşi Günəşin

təcəssümü hesab edən bu bayram hələ Zərdüştün dövründən əvvəl də Turanda mövcud olmuşdur. “Novruz” adı deyiliş fərqləri ilə bir çox türk xalqlarının dillərində işlənməkdədir. Onun adı Azərbaycan türkcəsində “Novruz”, qırğızların dilində “Nooruz”, Özbəkistanda “Növroz”, başqırdların arasında “Nevruz”, tatar dilində “Navruz”, uyğurların arasında “Noruz”, çuvaş dilində “Naurus”, Krım türkləri arasında “Nevrez” kimi səslənməkdədir. Nizami Gəncəvinin “İsgəndərnamə”, Mahmud Kaşqarinin “Divani-Lüğət-it Türk”, Ömər Xəyyamın “Novruznamə”, Nizamülkün “Siyasətnamə və digər klassik şair və mütəfəkkirlərin əsərlərində Novruz bayramı haqqında məlumatlara rast gəlinir.

Tarixi qaynaqlar Novruzun ən qədim türk bayramlarından biri olduğunu göstərir. qənaətini ortaya qoyur. Tədqiqatçı Elməddin Əlibəyzadə yazır*: “Şumer-türk ağlı və zəkasının kəşfi yeni ilin ilk gününün – yazın, baharın təntənə ilə qarşılanması, bayram edilməsi türk xalqlarının Ata ruhunun yaşantısıdır... Hələ 12 min il bundan əvvəl yeni il şənliyi xatırlanır, hörmətlə yad edilirdi”* (Əlibəyzadə, 1998, s. 147).

Novruz bayramının on birinci əsrdə rəsmi şəkildə qeyd olunmasının tarixi Səlcuqlu sülaləsinin üçüncü və ən böyük hökmdarı I Əbülfəth Cəlaləddin Məlikşahın hakimiyyəti dövrünə (1072-1092) təsadüf edir. Mənbələrin məlumatına görə onun ölkəsinin insanları günləri qarışdırırdılar. Sultanı Məlikşah bu uyğunsuzluğu aradan qaldırmaq üçün məşhur şair və astronom Ömər Xəyyam başda olmaqla, görkəmli astronomlardan və riyaziyyatçılardan ibarət bir komissiya təşkil etdi. Bu komissiya dünyada ən dəqiq təqvimlərdən birini düzəldərək, baharda gecə ilə gündüzün bərabərləşdiyi günü 1 fərvərdin (Qriqorian təqvimi ilə 21 mart) tarixinə təyin etdi. Sultan Məlikşahın Cəlalüddövlə ləqəbinə uyğun olaraq,həmin təqvimə “Takvim-i Cəlali” adı verilmişdi. “Cəlali təqvimi” nə əsasən il dörd fəslə bölünmüşdü. Münəccimlərin hesablamalarına görə, il martın 21-də təhvil olunurdu və beləliklə, Səlcuqlularda ilbaşı, günəşin Qoç bürcünə girdiyi gün olan Novruz günü olaraq qəbul edilmişdir (Hüseynoğlu, 2010, s. 5). “Cəlali” təqviminə görə, ilin uzunluğu 365 gün, 5 saat, 49 dəqiqə, 15 saniyə, 48 rəbiədir. Bu qədər mükəmməl bir təqvimin hazırlanması türklərin çox dərin astronomik biliklərə

malik olduqlarını sübuta yetirir. Novruz bayramı xalq arasında insana həyat verən dörd ünsürün – suyun, odun, havanın, torpağın isinməsi, "dirilməsi" istəyi ilə bağlı olmuş, yeni il kimi qarşılanmışdır. Bu dörd ünsürlə əlaqədar yeni ilə – Novruza dörd həftə qalmış hər çərşənbədə bir sıra ayinlər icra olunmuşdur. Qarabağ və Şərqi Zəngəzurda yazın gəlişi və Novruz bayramına hazırlıq altı çərşənbə ilə başlanırdı. Əhali arasında bu çərşənbələrdən üçü "yalançı çərşənbə", üçü isə "doğru çərşənbə" adlandırılırdı. Novruz bayramı ərəfəsində hər evdə bahar rəmzi hesab edilən səməni göyərdilər, yumurta boyadılar, qovurğa qovurular, qovut çəkilər, ləziz xörəklər hazırlanar, qəbiristanlıqlara gedərək əzizlərinin məzarlarını abadlaşdırar, gəzintiyə çıxar, bir-birinə qonaq gedər, pay aparar, pay gətirər, mehribanlaşar, küsülülər barışardılar. Novruzu həm də təmizlik, paklık bayramı kimi də qeyd edər, hər evdə, hər həyətdə təmizlik və abadlıq işləri aparılar, çərşənbə tonqalları qalanardı. Yeni il martın 22-də bayram edilirdi. Yaşlı məlumatçılarımızdan Qızxanım Bəndəliyeva və Şövkət Zülfiqarova bildirdilər ki, həmin gün ayın görünüşündən ilin, havanın necə keçəcəyini müəyyənləşdirirdilər. Qışın çıxmasını isə aprel ayının 15-nə qədər gözləyir, həmin günü "qarının çəpişlərinin ölümü" adlandırırdılar. Folklorşünas M. Qasımlının gəldiyi qənaətə görə isə Novruz çərşənbələrinin sayı əslində yeddi olmuşdur: "Novruz çərşənbələri" adlanan çərşənbələrin sayı dörd yox, yeddidir. Sadəcə olaraq, onların dörd sonuncusu əsas çərşənbələr sayılır. Əsas çərşənbələrə qədərki üç çərşənbə el arasında "oğru çərşənbələr" adlanır. İnama görə oğru çərşənbələrdə yazın nəfəsi oğrunca suya, torpağa, ağaclara toxunub geri qayıdır, bu minvalla yaxın zamanlarda gəlib çıxacağının xəbərini vermiş olurdu. *"Oğru çərşənbə"lərdən sonra başlayan əsas çərşənbələr "doğru çərşənbələr"* adıyla tanınır] (Qasımlı, 1998, s. 12-15). Qarabağ və Şərqi Zəngəzurda əhali arasında geniş yayılmış inama görə doğru çərşənbələrin ixtiyarı əvvəlcə suya, sonra torpağa, nəhayət ağaclara verilirdi. Bu çərşənbələrdən birincisi "Su çərşənbəsi", yaxud "Yalançı çərşənbə", ikincisi "Od çərşənbəsi", üçüncüsü "Yel çərşənbəsi" adlandırılırdı. Bölgədə ən təntənəli bayram "Axır çərşənbə"də "İlaxır çərşənbə"

qeyd edilirdi. Bütün çərşənbələrdə hər həyətdə tonqal qalanar, adamlar odun başına toplaşar və üzərindən tullanıb diləklərini söyləyərdilər:

*Ağırlığım, uğurluğum,*

*Ağrım-acım,*

*Qadam, balam*

*Bu oda tökülsün.*

Arxaik mədəniyyətlərdə ocağın yandırılması dünyanın yenidən yaradılması ilə bağlı mühüm ayin olmuşdur. Ona görə də "Xıdır İlyas" və Novruz bayramlarında – yəni köhnə "Yeni il" günlərində ocaqlar yandırılırdı. Göytürklərin mifologiyasında adı "Türk" olan əcdadın ilk ocağı yandıraraq millətini yox olmaqdan xilas etməsi, yenidən doğuluşu və yeni başlanğıcı simvolizə edirdi. Ocağın, odun söndürülməsi matəm və ölüm əlaməti hesab olunurdu. Təsadüfi deyil ki, indi də həm azərbaycanlılar, həm Anadolu türkləri və bir çox türk xalqları arasında "Ocağın sönsün" - ifadəsi ən ağır qarğış hesab edilir. Buna görə də bölgədə bayram tonqalının üstünə su töküb söndürmək günah hesab edilir, ocağın özünün sönməsi gözlənilirdi. Yuxarıda qeyd edildiyi kimi, çərşənbələrin içərisində ən təntənəli bayram "Axır çərşənbə" "İlaxır çərşənbə" hesab olunurdu. Bu bayramda evlərdə bayram süfrəsi açılar, şirniyyatla dolu xonçalar bəzənərdi. Uşaqlar papaq, kiçik xurcun, torba götürərək evlərə yollanar, bayram sovqatı toplayar, qohum və qonşular bir-birinə bayram xonçası göndərərdilər. "İlaxır çərşənbə"də qohum-qonşular evində hüzür olan ailənin həyətində tonqal qalayar, ocağının üstündə qazan asar, bununla da həmin ailəni yasdan çıxarardılar. Nişanlı oğlanlar nişanlısının evinə torba atardılar. Adətə görə nişanlı qız torbaya nişanlısı üçün toxuduğu naxışlı corabı qoyardı. Nişanlı qızlar otağın içində şərid düzəldib cehizlərini, ev bəzəklərini asardılar ki, onlar da təzələnsin. Kimin hələ geyinmədiyi təzə paltarı, yaxud parçası olardısa, onu da şəriddən asardı. Axır çərşənbə günündə baş, paltar yumaq olmazdı. İnama görə həmin gün ruhlar da evlərinə gəlir, ailə üzvlərinin bayramı necə qarşıladığından xəbərdar olurdu. Bölgənin bir sıra

kəndlərində axır çərşənbə günündə quru lobya ilə aş, yaxud xörək bişirir, lobyanın qırmızı rəngli suyunu həyətə tökürdülər ki, evdə həmişə şadlıq olsun. İlin axır çərşənbəsində gənc qızlar damda (qaradam) yığışardılar. Damda yüyürük asar, səhərin açılmasına qədər hamı oyaq qalardı. Nişanlı qızları yüyürüyə çıxarıb nişanlısının adını söyləməyi tələb edərdilər. Oğlanlar da səhərəcən damın bacasından baxıb qızları pusardılar. Yüyürüyə çıxarılan nişanlı qız utanıb nişanlısının adını çəkməyəndə onu o qədər döyərdilər ki, axırda nişanlısı buna dözməyərək bacadan: – “mənəm” qışqırırdı, mənim adım, məsələn, Əlidir. Burada səhərədək deyib-gülər, şənlənər, nəğmə oxuyar, müxtəlif əyləncələr keçirərdilər. Axır çərşənbədə müxtəlif ayinlər, fallar icra edilib, niyyət tutulurdu. Axır çərşənbədə keçirilən rituallardan biri “danatma” idi. Danatmada damda toplaşmış qızlar dövrə vurub oturar, ortalığa su ilə dolu mis qab qoyar, hərə ürəyində bir niyyət tutaraq iki iynənin ucuna pambıq dolayar, müxtəlif istiqamətdən qabın içərisinə salardı. Əgər iynələr baş-başa gələrdisə, niyyətin hasil olması, gəlməzdisə baş tutmayacağı əlaməti hesab edilərdi. Səhər dan yeri ağaranda qızlar axar suyun üstünə gedər, səhənglərini çərşənbə suyu ilə doldurar, suyun üstündən üç dəfə tullanıb: - “azarım-bezarım su ilə axıb getsin” alqışını edər, xəstələri olduqda onlar üçün də şəfa diləyər, oradan xırda daşlar gətirib evdəki un çuvalına, çörək teknəsinə, yağ küpəsinə qoyar, gələn Novruzadək çıxarmazdılar ki, il boyunca evlərindən bolluq əskik olmsın. Əhalinin inancına görə ilin axır gecəsində axar su bir dəqiqə dayanır, çayın, arxın kənarında olan ağac və kollar başını əyərək suya səcdə edir. Bu suya “lal su” deyilirdi. Kənd camaatı axşamdan suyun qabağına çəpər çəkərdi. Kim dan yeri ağaranda gəlib çəpəri birinci açsa və axar suyun dayandığını görsə idi, ilin ona xoşbəxtlik gətirəcəyinə inanardı. “Lal su” dan fal kimi də istifadə edilərdi. Falın tələbinə görə, bulaq başından suyu gətirən adam evə çatana qədər heç kimlə danışmamalı, yol boyu heç kim ondan heç nə soruşmamalı idi. Əks halda fal batil sayılardı. Çərşənbə axşamının səhəri isə kənd camaatı çərşənbə suyu ilə yuyunardı. İnama görə il dəyişəndə su da pak olur, təzələnirdi. Kimin

qara rəngli atı vardısa o, gecə suyun kənarına gələr, səhərədək göz-ləyərdi. İnama görə axar su dayananda qara rəngli atın ağzından qığılcım çıxır, həmin vaxt atın sahibi nə niyyət etsəydi, niyyəti qəbul olunardı. Belə inam var idi ki, axır çərşənbədə atın kövşəməsini görən adamın da bütün niyyətləri hasil olardı. Məlumdur ki, at kövşəməyən heyvandır. İnama görə o yalnız bir dəfə, "İlaxır çərşənbə"də kövşəyir, bunu görən şəxsin isə bütün niyyətləri qəbul olunurdu. "İlaxır çərşənbə"də qulaq falına çıxar, güzgü, yumurta və rənglərlə fala baxardılar. Novruz bayramında keçirilən çoxsaylı əyləncələrin içərisində kollektiv oyunlar xüsusi yer tuturdu. Bu oyunlardan qızların arasında geniş yayılmış "Bənövşə", "Cəhribəyim" və s. xüsusi göstərmək olar. "Bənövşə" oyununda bəzən oğlanlar da qızlarla bərabər iştirak edirdilər. Oyun iki dəstə arasında belə dialoqla aparılırdı:

***Birinci dəstə:*** *– Bənövşə, ay bənövşə,*
***İkinci dəstə:*** *– Can bənövşə,*
*Bizdən sizə kim düşə?*
***Birinci dəstə:*** *– Adı gözəl, özü gözəl*
*(Adı çəkilərdi).*

Adı çəkilən oyunçu yüyürə-yüyürə, əl-ələ tutuşmuş dəstənin tutac bəndiniqırmalı, həmin dəstədən istədiyi oyunçunu götürüb öz halayına qatmalı idi. Bu işin öhdəsindən gələ bilmədikdə isə həmin dəstədə qalır, yaxud dəstənin arzusu ilə nəğmə oxuyur, rəqs edir, gülməcə söyləyib öz qatarına qayıdırdı. "Cəhribəyim" adlanan oyunda da oyunçu qızlar iki dəstəyə bölünərək üz-üzə dayanır, sağa və sola əyilməklə əl çalıb oxuyurdular:

***Birinci dəstədən bir nəfər:*** *O taydan əl eyləmə, hu Cəhribəyim, Bağrımı qan eyləmə, hu Cəhribəyim.*

***Hər iki dəstə əl çalaraq xorla****: Araq, varaq, Cəhribəyim,Güzgü, daraq, Cəhribəyim.*

***İkinci dəstədən bir nəfər:*** *Sandıq üstə gücü var hu, Cəhribəyim, Gücünün qırx ucu var hu, Cəhribəyim.*

***Xor əl çalaraq:****Araq, varaq, Cəhribəyim, Güzgü, daraq, Cəhribəyim (*İnf.: Zülfiqarova).

Novruz bayramında qızlar ağacdan yelləncək asıb əylənər, yelləncəkdə bir-birini çubuqla vuraraq sevgilisinin adını söyləməyə məcbur edərdilər. Yelləncəkdəki qız onu sevən oğlanın adını deməyənə qədər yelləncəkdən düşməyə qoymazdılar. Göründüyü kimi, Novruz xalq bayramı ilə bağlı rəngarəng ayin, oyun və əyləncələr və inanclar mövcud olmuş, onların bəziləri unudularaq yaddaşlardan silinmiş, bəziləri isə nəsillərdən-nəsillərə ötürülərək xalqın yaddaşında əbədiyyən yaşamışdır.

**2.*“Xıdır Nəbi” bayramı***

Qarabağ və Şərqi Zəngəzurda qədim tarixə malik mövsümi bayramlardan biri də “Xıdır İlyas”, yaxud “Xıdır Nəbi” adlandırılan bayram olmuşdur. Bu bayram dinindən asılı olmayaraq bir çox türk xalqları arasında (Türkiyə, Balkan türkləri, Volqaboyu tatarları, başqırdlar, Krım tatarları, xristian qaqauzlar, şiə və sünni İraq və Suriya türkmanları, rumınların bəzi etnoqrafik qrupları, albanlar, bolqarlar, boşnaklar, yunanların bəzi etnoqrafik qrupları və s.) geniş yayılmış, “Xıdır İlyas”, “Xıdır Nəbi”, “Xederlez,” ”Hıdırellez” adları ilə tanınmışdır. Hazırda Naxçıvan bölgəsi istisna olmaqla həmin bayramın Azərbaycanda qeyd olunması unudulmuşdur. Anadolu türkləri arasında hələ Göytürklər dövründən bu günə kimi may ayının 5 və 6 -sı “Hıdırellez” bayramı kimi qeyd edilir. Göytürklər bu tarixi kolları yandıraraq qeyd edərdilər. Bu bayram islamdan əvvəl “Ağ saqqallı qoca”, “Göy saqqallı qoca”, “Qızılı saqqallı Ay qoca” adı ilə tanınmış, islam dini yayıldıqdan sonra “Hızır”, yaxud “Xıdır”la bağlı inanca çevrilmişdir. Bayramın qeyd olunmasının tarixində müxtəliflik olsa da, keçirilən mərasimlər, icra olunan ayinlər eyni – yazın gəlişi məzmununu daşıyırdı. “Xıdır Nəbi” bayramı adətən Novruz bayramından əvvəl keçirilirdi. Demək olar ki, Novruz bayramı ərəfəsində Xızır peyğəmbərin adı ilə əlaqələndirilən və müqəddəsləşdirilən Xızırın - yazın gəlişi həyatın başlanğıcı hesab edilən 4 ünsürlə (su, od, torpaq, hava), yaxud 4 çərşənbə ilə qeyd olunurdu.

P. Xəlilov yazır: "Folklorumuzda Xızır qədim xeyirxah-sehrli qüvvədir. Sonralar islam dini əfsanəsinə qarışıb “Xızır İlyas” kimi məşhur olmuşdur. “Xızır İlyas” sehri (möcüzəsi) bir daha təsdiq edir ki, bu boy ən qədim dastanlardan su içir, tarixən islamın yayıldığı dövrlərin əfsanələrinin təsirindən də kənarda qalmır" (Xəlilov, 1993, s. 107). Bütün türk dünyasında geniş yayılmış əfsanəyə görə, Hızır göylə yeri birləşdirən, göylə yerin arasında dirək rolunu oynayan uca qovaq ağacından Yerə enərək xəstələrə şəfa verir, insanlara firavanlıq, bol ruzi-bərəkət və xoşbəxtlik gətirir və baharın gəlməsini müjdələyir.Bu gün unudulmuş həmin bayram bir-birindən cüzi fərqlərlə demək olar ki, tarixən Azərbaycanın bütün bölgələrində keçirilmiş və ayrı-ayrı tədqiqatlarda əksini tapmışdır.

“Xıdır İlyas” bayramının təsadüf etdiyi günlər haqqında Azərbaycan tədqiqatçıları arasında müxtəlif fikirlər formalaşmışdır. Onlardan bəziləri bu bayramın fevral ayında – “Böyük çillə”dən dörd və “Kiçik çillə”dən üç gün olmaqla yeddi gün davam etdiyini bildirirlər (Məhərrəmova, 2020, s. 231). Tədqiqatçı Ə. Axundov həmin bayramın “Kiçik çillə”nin onuncu günündə qeyd edildiyini göstərir (Azərbaycan folkloru antologiyası, II, 1968, s. 11). B. Abdullanın fikrincə, “Kiçik çillə”nin "Xıdır Nəbi" adlanan birinci ongünlüyü fəslin ən sərt, çovğunlu, dondurucu çağı sayılır. “Xıdır Nəbi”nin şərəfinə icra olunan ayinlər Xıdırın yaşıllıq, su hamisi sayılan Xızırla əlaqəsini göstərir (Abdullayev, 2005, s. 111). M. Qasımlı "Xıdır Nəbi" bayramının hər il qış yarı olanda, “Böyük çillə” ilə “Kiçik çillə” arasında keçirildiyini bildirir (Qasımlı, 1998, s. 40). Professor Ə. Cəfərzadə "Xıdır İlyas" mərasiminin “Kiçik çillə”nin qurtardığı son üç gündə – təxminən fevralın 25-28-i arasında keçirildiyini göstərir (Cəfərzadə, 2001, s. 163). Ə. Ələkbərov da "Xıdır Nəbi" mərasiminin “Kiçik çillə”nin birinci ongünlüyündə qeyd edildiyini göstərmişdir. Azərbaycan xalq təqvimində fevral ayının əvvəlindən başlayaraq iyirmi gün davam edən “Kiçik çillə” soyuqluğu, tufanı, şaxta-sazağı ilə özündən əvvəlki və sonrakı çillələrdən seçilir. “Kiçik çillə”nin “Xıdır Nəbi” adlanan birinci ongünlüyü qış fəslinin ən sərt, çovğunlu, dondurucu vaxtı sayılır və qışın oğlan çağı hesab edilir.

Azərbaycanda: - “Xıdır girdi qış girdi, Xıdır çıxdı, qış çıxdı”- zərb-məsəli də məhz buradan yaranmışdır (Məhərrəmova, 2020, s. 233-234). Qarabağ və Şərqi Zəngəzur bölgələrində də el arasında qış fəsli “Xıdır Nəbi” ilə səciyyələnir və həmin vaxt keçirilən mərasimin adı da “Xıdır Nəbi” mərasimi adlanırdı. Xızır Azərbaycan şifahi xalq ədəbiyyatının dastan, nağıl, inanc, məsəl kimi janrlarında tez-tez rast gəlinən Boz atın belində, üzü yaşıl rübəndli, qapı-qapı dolaşaraq insanlardan yardım istəyi və “işıq sürəti” ilə hərəkət edərək bir göz qırpımında ortadan qeyb olan mifik obrazdır. Təsadüfi deyil ki, çətinlikdə qalan birinə yardım əli uzadan insan üçün: “Xızır kimi dadıma çatdın”- el deyimi indi də işlədilir. Xalq arasında “Xıdır İlyas” bayramı günü yağan yağmur iki qardaş - Xızır və İlyasın göz yaşları kimi səciyyələndirilirdi. Xızırın qardaşı İlyasla bərabər dirilik suyundan içməsinə, birinin dənizdə, digərinin quruda dara düşənlərin imdadına yetişməsinə, xəstələrə şəfa verməsinə, insanı muradına çatdırmasına inam min illər öncə olduğu kimi, bu gün də xalq arasında yaşayır.

"Kitabi - Dədə Qorqud" dastanının "Dirsə xan oğlu Buğac xan boyu"nda Dirsə xanın öz oğlu Buğacı yaralayıb Qazlıq dağında qoyub getdiyi səhnəsində deyilir: Oğlan orada yıxılanda Boz atlı Xızır oğlanın yanında hazır oldu. Üç dəfə yarasını əliylə sığallayıb: *"Oğlan, qorxma, sənə bu yaradan ölüm yoxdur. Dağ çiçəyi ilə ananın südü sənin yarana məlhəmdir]- deyib yox oldu"* (Kitabi-Dədə Qorqud, 1988, s. 137). “Xıdır İlyas” bayramının kökü daha qədimlərə söykənərək əhalinin təsərrüfat həyatında mühüm rol oynamışdır. Təsadüfi deyil ki, Qarabağ və Şərqi Zəngəzurda bu bayram Yeni (maldarlıq) ilinin başlanğıcı, maldarlığın canlanması (yaylağa hazırlığın başlanması) kimi daha çox maldarlıqla məşğul olan əhalinin bayramı hesab olunurdu. Burada belə inam vardı ki, guya “*Xıdır Nəbi Boz atının belində gələrkən evlərdə bayram əhval-ruhiyyəsi görməsə küsüb gedər”*. Buna görə də hələ “Kiçik çillə”nin birinci günündən başlayaraq bayram tədarükü görülərdi. “Xıdır Nəbi” süfrəsinin əsas atributları səməni, kömbə, kökə, qovurğa, qovut, boyanmış yumurta, xəşil və düyüdən hazırlanmış yeməklər idi. “Xıdır Nəbi” bayramında buğda sacda qovurular, qovurğaya küncüt, çətənə, iydə,

tut və gilas qurusu, qoz və fındıq ləpəsi qatılardı. Qovurğa kirkirədə üyüdülərək qovut çəkilər, kərə yağı və südlə qarışdırılar, üzərinə şəkər tozu, yaxud bal əlavə edilıb yumrulanar və süfrəyə verilərdi.

"Xıdır Nəbi" xəşili müxtəlif çeşiddə hazırlanırdı. Onu un, yağ, bəhməz və ya şəkər tozu ilə, bəzən də qurut, yarma və qovutla bişirərdilər. Ə. Ələkbərov yazırdı: "Bu bayrama hazırlıq işləri qadınlar tərəfindən aparıldığı üçün onu daha çox qadın bayramı hesab etmək olar" (Alekperov, 1960, s. 145). Bayram günlərində hər həyətdə "Xıdır tonqalı" yandırılar, evin bütün sakinləri tonqalın üstündən atlanardılar. Evlərdə qovutu, bəzən də unu məcməyinin içində nazik yayar, ayrıca, heç kəsin girmədiyi otağa qoyub səhərə qədər ona əl vurmaz, əvvəlcə "Xıdır Nəbi"nin gəlib öz payını götürməsini gözləyərdilər. Ertəsi günü unun, yaxud qovutun üzərində əl izi görünərdisə, "Xıdır Nəbi"nin əlinin izi hesab edərdilər. İnama görə, əgər "Xıdır Nəbi" məcməyidəki qovutdan dadardısa, evin ruzi-bərəkəti artar, bolluq olardı. Yalnız bundan sonra həmin qovutdan ailə üzvlərinə yeməyə icazə verilərdi. Axşam şər qarışanda isə 10-15 nəfərdən ibarət yeniyetmə və uşaqlar dəstələnib evləri qapı-qapı gəzər, "Xıdır" nəğməsini oxuyar və bayram payı yığardılar. Dəstədən bir nəfər aşağıda verilmiş "Xıdır" nəğməsini oxuyub - oynayar:

*Xıdır baba gəldi bizə,*
*Bizi göndərdi sizə.*
*Xıdır baba eşqinə*
*Bir pay verin siz bizə.*
*Verənin oğlu olsun*
*Verməyənin qızı olsun,*
*Bir gözü kor olsun,*
*Bir ayağı çolaq olsun.*

***Dəstə üzvləri isə xorla bu nəqaratı təkrar edərdilər:***

*Xıdırı-Xıdır İlyas,*

*Özünü yetir İlyas*
(İnf.: Fətəliyev, Çıraqov, Camalov).

****

*Xıdır gəlir haynan-huynan*

*Altında bir qara daynan,*

*Qara day palçığa batdı,*

*Xıdır yanında yatdı.*

***Xor:***

*Yağ verin yağlayaq,*

*Dəsmal verin bağlayaq* (İnf.: Şəkərəliyev).

****

*Xıdır getdi hayınan,*
*Bir balaca dayınan.*
*Dayı palçığa batdı,*
*Xıdır yanında yatdı.*

***Xor:***
*Xıdır İlyas, Xıdır İlyas,*
*Açdı çiçək, gəldi yaz* (İnf.: Şəkərəliyeva).

****
*Xızıra Xıdır deyərlər,*
*Yoluna çıraq qoyarlar,*
*Xıdırı saymayanın*
*Gözlərini oyarlar (*Abdullayev, 1989, s. 111).

****
*Çatma-çatma çatmaya,*
*Çatma yerə batmaya,*
*Xıdırın payın verməyən,*
*İstəyinə çatmaya* (İnf.: Əliyeva).

Anadolu türkləri arasında da "Çiğdem Gezimesi" (*Çiğdem çiçegi Anadoluda novruzgülünə deyilir – S.M.)* adlandırılan adətə rast gəlinir. Uşaqlar qapı-qapı gəzərək bayram süfrəsi üçün yağ, bulğur istəyir və bu nəğməni oxuyurdular: "Xıdır Nəbi" mərasimini bölgədə qışın yarısının yola salınması kimi də qeyd edərdilər. Şərqi Zəngəzurda - Kəlbəcər rayonunun Dərəqışlaq kəndində "Xıdır

Nəbi" mərasimini "Kiçik çillə"nin qurtarmasına beş gün qalmış keçirər və bu bayramı "Məmmədqulu Xıdır Nəbi"si adlandırardılar. Kənddə çoxlu tonqallar yandırar, hamı evindən bayıra çıxardı.Bölgənin bəzi kəndlərinin maldar əhalisi "Xıdır Nəbi" mərasimini çox vaxt "qurdların bayramı" adlandırar, fevral ayının ortalarında 3 gün qeyd edərdilər. Həmin vaxt havanın çox soyuq olması, güclü küləyin əsməsi, hətta qar çovğunlarının baş verməsi, ac qalan qurdların mal-qoyuna hücum etməsi insanları təlaşa salır, "Xıdır Nəbi" sovuşanda "xətadan qurtardıqlarını" bayram edir, "qurdların bayramı" münasibətilə xəşil və düyü yeməkləri bişirirdilər. Kiçik yaşlı uşaqlar qarğı çubuğundan düzəltdikləri atları ilə çapıb hər qapını döyər:

*Boz qurddan hay alasan,*
*Xızırdan pay alasan* (Abdullayev, 1989, s. 84).
*Xanım, ayağa qalxsana,*
*Dağarın ağzın açsana,*
*Torbanı doldursana,*
*Xıdırı yola salsana –*
*nəğmələrini oxuyar və*
*"Xıdır payı" yığardılar (İnf.: Bayramov).*

Əhali arasında yayılmış inanca görə, belə hesab edilərdi ki, Xızırın özü də uşaqların arasındadır, onlara pay verilməsə Xızır küsər, atını çapıb gedər, həmin evin ruzi-bərəkətini də özü ilə apalardı. Pay verildikdə isə Xızır peyğəmbər atını çapıb həmin evlərin hamısına ruzi paylaya-paylaya gedər, gecə külək əsəndə isə onu Xızırın gəlməsi, əsən küləyin onun atının kişnərtisi hesab edərdilər. "Xıdır Nəbi" həm də niyyət bayramı olmuşdur. Bu bayramda niyyət tutub bir sıra ayinlər icra edərdilər. Qızlar duzlu kökə bişirib yeyər, su içməz, niyyət tutub yatar və yuxuda gördüklərini yozardılar. Qız yuxusunda hansı oğlanın ona su verdiyini və ya özünün hansı həyət və məhəllədən su içdiyini görərdisə, bunu gələcək qisməti kimi bilərdi. Qızlar başlarını qara yaylıqla bürüyüb qaranlıq otaqda güzgüyə baxar və orada gələcəkdə ailə quracağı oğlanın sifətini görərdilər. Bu bayramda "qapıpusma" falı

da var idi. Gənc qızlar qulaqlarını barmaqları ilə qapayıb qapı pusmağa gedər, nəzərdə tutduqları qapıya çatanda açıb evdən gələn danışığa qulaq asar, bununla da sanki gələcək talelərini müəyyən edərdilər. “Xıdır Nəbi” bayramında edilən niyyətlərdən biri də belə idi: qızlar xəşil bişirər, onu evin damında qoyub gizlicə güdərdilər. Əgər qarğa gəlib həmin xəşildən götürüb dimdikləsə niyyətin baş tutacağına inanar, habelə qarğanın uçub qonduğu həyətdə yaşayan oğlanla ailə quracağına yozardılar. Yaxud qovurğanı sacda qovuranda ürəklərində niyyət edərdilər: məsələn, əgər buğdadan 7 ədədi kənara sıçrasa, deməli niyyət yerinə yetəcəkdi. Rusiyalı tədqiqatçı T. F. Aristova Şərqi Zəngəzurun Laçın, Qubadlı və Zəngilan rayonlarında “Xıdır Nəbi” bayramının qeyd edilməsi haqqında yazırdı: “Qışın ortalarında keçirilən bu bayramda azərbaycanlı qadınlar ailəsinin salamatlığı üçün sacda qovurğa qovurar, çay və bulaq kənarında müxtəlif rənglərlə bərabər bir neçə yumurta qoyaraq niyyət edər, ertəsi gün gəlib yumurtalara baxardılar. Yumurta qırmızı rəngə boyanardısa yaxşı, qara boyanardısa pis əlamətə yozardılar” (Aristova, 1990, s. 177). “Xıdır Nəbi” bayramının gedişi prosesini izlədikcə, bu bayramda icra olunan ayin və adətlərin Novruzun “İlaxır çərşənbə”sinə xas olan adətlərlə səsləşdiyini görmək olar. Novruz bayramı təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. kimi təbii proseslərlə müşayiət edilir. “Xıdır Nəbi” də bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur, ayaq atdığı, əyləşdiyi hər yeri yaşıllaşdırır, Xızır peyğəmbərlə eyniləşdirilir. Bu nöqteyi-nəzərdən bayramın həm əkinçilik, həm də maldarlıqla bağlı olması nəticəsinə gəlmək mümkündür.

"Xıdır Nəbi"ilə (Xızır peyğəmbər) bağlı hadisələrə Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrində də rast gəlinir. Adətən çətinliyə düşmüş dastan qəhrəmanları Xızıra müraciət edir, ondan kömək istəyirdilər. Bəzi hallarda isə Xızır peyğəmbər özü çağırış gözləmədən köməyə gəlirdi. "Şahsənəm və Aşıq Qərib" dastanından göründüyü kimi dastanın qəhrəmanı Xızır peyğəmbərin köməyi ilə bir neçə günlük yolu çox qısa müddətdə qət edir və məhz bunun nəticəsində öz sevgilisinə qovuşur (Məhərrəmova, 2020, s. 235). Beləliklə, “Xıdır İlyas”, yaxud

"Xıdır Nəbi" xalq bayramı olmaqla yanaşı, həm də mifik bir obrazın – Xıdır İlyasın mövcud olduğu və mərasimlərdə şəxsən iştirak etdiyi fikrini yaddaşlarda möhkəmləndirir. Lakin Xızır və İlyas peyğəmbərin real şəxsiyyətlər olması, adlarının "Qurani-Kərim"də çəkilməsinə baxmayaraq "Xıdır Nəbi", yaxud "Xıdır İlyas" bayramının islam dini ilə heç bir əlaqəsi olmamış, qışın qurtarması, yazın gəlişi ilə bağlı keçirilən sırf mövsümi bayram səciyyəsi daşımışdır.

**3.Qurban bayramı**

Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Qarabağ və Şərqi Zəngəzurda islam dini ilə bağlı bayram və mərasimlər içərisində Qurban və Ramazan (Orucluq) bayramları, habelə Məhərrəmlik mərasimi xüsusi yer tutur. Qurban bayramı ölkəmizdə və bütün İslam dünyasında qeyd olunan müqəddəs bayramlardan biridir. Araşdırmalar göstərir ki, qurbanvermə adəti dünyanın bir sıra xalqları arasında mövcud olmuşdur. Səmavi dinlər - yəhudilik və xristianlıqda da qurban adəti vardır. Bu adət hələ islamdan əvvəl qədim türklərin arasında da yayılmışdı. Qurban adəti islam dinindən əvvəl İbrahim peyğəmbərin zamanında yaranmışdı. Hicrinin (Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə köçməsinin) ikinci ilindən sonra bu adət qədim ənənələrdən islama gətirilmiş, xeyriyyəçilik, başqalarına kömək etmək xüsusiyyətləri kəsb edərək islam dini ilə çulğalaşmış, insanları halallığa, paklığa, Allaha sonsuz sevgiyə, onun qüdrətinə dərin inam və imana səsləmişdir. Həmin vaxtdan etibarən Qurban bayramı müsəlman təqviminin Zilhiccə ayının 10-cu gününə təsadüf edən hər ilin aylarındakı 11 gün fərqlə qeyd olunur (Məhərrəmova, 2020, s. 238). Allah-Təala buyurur: *"Biz hər bir ümmət üçün qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi olaraq verdiyi heyvanları (qurban kəsərkən) Allahın adını çəksinlər"* (Əl-Həcc, 22; Bünyadov ve Məmmədəliyev, 1992).Müqəddəs Qurban bayramı "İsmayıl qurbanı" adı ilə də məşhurdur. Rəvayətə görə:

*"Allah İbrahim peyğəmbərə imtahan məqsədilə yeganə oğlu İsmayılı qurban verməsini vəhy göndərmiş, qəlbində güclü Allah sevgisi olan İsmayıl da onun yolunda qurban getməyə hazır olmuşdur. İbrahim peyğəmbər iki dəfə oğlu*

*İsmayılın başını kəsməyə cəhd göstərmiş, lakin bıçaq kəsməmişdir. Üçüncü cəhddə Allah-Təala mələyi Cəbrayıl vasitəsilə İbrahim peyğəmbərə bir qoç göndərərək qurban kəsməsini əmr etmişdir".*

Müqəddəs "Quran" da buyurulur:

1.*(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər (Cənnətdəki Kövsər irmağını və ya bol nemət, yaxud Quran, peyğəmbərlik) bəxş etdik!*

*2.Ona görə də (bu nemətlərə şükür edərək) Rəbbin üçün namaz qıl və qurban kəs!* ( "əl-Kövsər" 108).

İslam dünyasının bir parçası olan Qarabağ və Şərqi Zəngəzurda da Qurban bayramı islamın bütün şərtlərinə uyğun şəkildə həyata keçirilirdi. Burada qurban kəsiləcək toğlu, qoc, yaxud cöngə əvvəlcədən seçilib xüsusi bəslənirdi. Bəzən də bir neçə ailə birləşib cöngə alır, kəsib öz aralarında paylaşırdı. Qurban kəsiləcək heyvanlar bir yaşdan aşağı olmamalı idi. Qüsurlu, xəstə heyvanı qurban kəsmək günah hesab edilirdi. Qurban ancaq təyin olunmuş günlərdə - Zilhiccənin 10, 11, 12-ci günlərində gündüz, bayram namazı qılınmayan yerlərdə isə sübh namazı vaxtında kəsilirdi. Qurbanlığı kəsiləcək yerə incidilmədən götürür, kəsməmişdən əvvəl heyvana duz yalatdırır, sonra üç ayağını kəndirlə bağlayıb sol tərəfi üzərində üzü qibləyə doğru çevirirdilər. Qaydaya görə əlindən gəldiyi qədər hər bir şəxs qurbanını özü kəsir, bacarmadığı halda başqasına həvalə edirdi. Bununla yanaşı, qurban sahibinin kəsmə zamanı orada olması vacib sayılırdı.Qurbanlıq heyvanın qanını yerə tökmək günah hesab olunduğundan onu bir qaba yığır, laxtalandıqdan sonra təmiz yerdə basdırıb üstünü torpaqlayırdılar. Qurban kəsilmiş heyvanın başını, ayağını və dərisini atmaq da günah sayılırdı. Çox zaman qurbanlığın baş-ayağı da imkansızlara pay verılirdi. Qurbanlıq ətdən qohum və qonşulara (yeddi evə*)* bərabər şəkildə pay qoyulur, qurbanı kəsən şəxsə də pay ayırılırdı. Nişanlı qızlara Qurban bayramında qurban payı, yaxud belinə xına çəkilmiş, buynuzuna qırmızı yaylıq bağlanmış qoç göndərilirdi. Qurban ətindən bişirilmiş yeməklərlə spirtli içki içmək də günah hesab edilirdi. Qarabağ və Şərqi Zəngəzurda Qurban bayramından başqa niyyət qurbanı kəsmək adəti olmuşdur.

Belə qurbanlar “nəzir qurbanı” adlandırılırdı. Burada qəbul edilmiş qaydalara görə “nəzir qurbanı” kəsilən evdə heç kəs qurbanlıq ətdən yeyə bilməz, imkansız ailələrə, yaxud məscidlərdə ibadətə gələnlərə paylanardı. Övladı olmayan ailələr də “nəzir qurbanı” niyyət edərdilər. Bu niyyətləri baş tutduqdan və uşagın doğulmasından sonra qurban kəsərdilər. Bəzi ailələr hətta doğulan uşağa 7 yaşına çatana qədər 7 il nəzir qurbanı əhd edər, doğulduğu gündə qurban kəsər və 7 evə pay göndərərdilər.

**4.Ramazan (Orucluq) bayramı**

İslamın müqəddəs bayramları arasında “12 ayın sultanı” hesab olunan Ramazan-Orucluq mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il- S.M.) Məhəmməd Peyğəmbər tərəfindən Mədinədə Ramazan ayı təyin olunandan sonra başlanır. “Qurani - Kərim” də məhz Ramazan ayının axırıncı on gecələrinin birində, ehtimal edildiyinə görə, ayın 22-dən 23-nə, yaxud 26-dan 27-nə keçən "leylət al-Qadr" gecəsində Yer üzünə nazil olunmuşdur. “Quran-Kərim”in “Qadr” surəsində bu gecənin haqqında:

*3. Min aydan daha yaxşıdır tək bir qədr gecəsi.*

*4. Hər iş üçün Rəblərinin izni ilə yerə enər mələklər və Ruh qədr gecəsi.*

*5 Dan yeri sökülənə qədər salamatlıq deməkdir qədr gecəsi* - deyilir (Qadr/97).

Orucluq islam dininin yayılmasından sonra qeyd edilməsinə baxmayaraq ərəblərin arasında qədim tarixə malik olmuşdur. Hələ “Quran” kitabı nazil olmamışdan əvvəl digər səmavi dinlərdə olan şəxslər üçün oruc tutmaq əmr edilmişdi. Bu haqda “Quran”da deyilir: *"Sizlərə oruc tutmaq göstərişi verildiyi kimi, bizdən əvvəlkilərə də həmin göstəriş verilmişdir”.* İslam dini təşəkkül tapdıqdan sonra orucluq Allah tərəfindən buyurulan əmr kimi yeni məna kəsb etmiş, İslam qanunlarına görə oruc tutmaq hər bir müsəlman üçün vacib şərtlərdən biri sayılmışdır. “Qurani-Kərim”də deyilir: *"Sübh açılınca, ağ sap qara sapdan*

*fərqlənincəyə qədər yeyib-için, sonra gecəyə qədər orucunuzu tamamlayın"* (Baqara /186).

***Bakı: Heydər məscidi***



Ramazan ayında oruc tutmaq insanlara Allahı sevmək, möhkəm iradə, dözümlülük təlqin edir, onları paklığa, xeyirxahlığa, gözüaçıq, təmiz vicdanlı, mərhəmətli olmağa yönəldir. Oruclaq ayının sosial və mənəvi əhəmiyyəti yemək və su çatışmazlığından əziyyət çəkən insanların iztirablarının əyani şəkildə ifadə edilməsidir. Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Orucluğun başa çatdığı gün "İd əl-fitr" bayramı adlanır. Qarabağ və Şərqi Zəngəzurda Ramazan ayı boyunca oruc tutanlara qohum və qonşular tərəfindən iftar süfrəsi açmaq adəti geniş yayılmışdı. Bölgənin yaşlı sakinlərinin məlumatına görə, keçmişdə burada yalnız yaşlılar oruc tutmuş, cavanlar arasında da niyyət və arzularının yerinə yetməsi üçün oruc tutanlar olmuşdur. Burada

orucluğun son "əhya" gecələrinə xüsusi diqqət verilər və sübhəcən yatmayaraq niyyət edərdilər. Ramazan bayramı günlərində qohum və qonşular bir-biri ilə bayramlaşar, xəstələrə baş çəkilər, küsülülər barışar, "fitr" zəkatı paylanar, nişanlı qızlara bayram xonçası və bəxşişlər aparılar, qəbiristanlıqdakı məzarlar yad edilərdi.

**5.Məhərrəmlik mərasimi**

Məhərrəm ayı (islam qəməri təqviminin birinci ayı) - yeni il gecəsi, qəməri ilinin ilk günü və "Qurani-Kərim"də adı çəkilən 4 aydan biridir. Təqvimin birinci günü Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə hicrət etdiyi il – başlanğıc ili kimi qəbul olunur və miladi tarixi ilə 622-ci ilin cümə gününə - iyul ayının 16-na təsadüf edir. Qəməri təqvimində bir il 354-355 gündür. Bu müddət ayın dünya ətrafında 12 dəfə fırlandığı zaman sayılır. Məhərrəm ayının ilk 10 günü və gecələri mübarək gün və gecə kimi qəbul olunmuşdur. Bu mərasim İslam dünyasında - İraqda 2 gün, Pakistanda 2 gün, İranda 2 gün, Hindistanda 2 gün, Bəhreyndə 2 gün, Türkiyədə 1 gün, Livanda 1gün, Əfqanıstanda 1 gün, Banqladeşdə 1 gün, Əlcəzairdə 1 günlük tətillə qeyd edilir. Məhərrəm ayını fərqləndirən daha bir tarix – "Aşura günü" (10-cu gün) Allahın rəsulu Həzrəti Məhəmmədin nəvəsi, çox sevilən İmam Hüseynin, onun ailə üzvlərinin və tərəfdarlarının Kərbalada şəhid edildiyi gün (hicri təqvimi ilə 61-ci il) hesab olunur. Məhərrəm ayının onuncu gününü bildirən "Aşura" ilə bağlı İslam aləmində ciddi fikir ayrılığı vardır. Adəmin tövbəsinin qəbul edilməsi, Nuhun gəmisinin torpağa çıxmağı, İbrahimin alovlarda yanmaması, Musanın və qövmünün azad olması və fironun dənizdə boğulması, Yaqub peyğəmbərin oğlu Yusifə qovuşması və s. bu qəbildəndir. Və buna görə də bir sıra ölkələrdə bu gün bayram kimi, bəzi ölkələrdə isə faciə kimi qeyd edilir. Belə ki, Türkiyənin, Səudiyyə Ərəbistanının, İndoneziyanın müsəlmanları arasında "Aşura" əlamətdar - Nuhun gəmisinin torpağa çıxması günü kimi anılır, "Aşura" adlanan xüsusi yemək hazırlanaraq ehsan kimi yaxın adamlara paylanır, insanlar oruc tutur və "Aşura" namazı qılınır (İnf.: Bəndəliyeva).

Müqəddəs "Qurani-Kərim"də buyurulur:

*"Həqiqətən, Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın Kitabında on ikidir. Onların dördü (rəcəb, zülqədə, zülhiccə və məhərrəm) haram aylardır. Bu, doğru dindir (İbrahim və İsmailin gətirdikləri dinin doğru hesabı və hökmüdür). Ona görə də həmin aylarda özünüzə zülm etməyin. Müşriklərin hamısı sizinlə vuruşduqları kimi, siz də onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir!* (ət-Tövbə/ 36).

Məhərrəm bütün səmavi dinlər tərəfindən sülh və əmin-amanlıq ayı kimi qəbul edilmişdir. Ancaq hicri 61-ci ildən etibarən bu ayın onuncu günü olan "Aşura" yaddaşlara Kərbala faciəsi, tarixi ədalətsizlik və hüzn günü kimi də daxil olmuşdur. Kərbala faciəsi bütün yer və göyləri lərzəyə gətirmiş, tarixdə həm şanlı, həm də tükürpədici qanlı hadisə kimi xatırlanır. Kərbalada yazılan şanlı tarix Məhəmməd Peyğəmbərin insanlara gətirdiyi islam dinini düşmənlər tərəfindən məhv olmaqdan qurtarmış İmam Hüseynin misilsiz fədakarlığı və şəhadəti ilə bağlıdır. Qəhrəmanlıq, fədakarlıq simvolu olan "Aşura" günü islam dininin şiə məzhəbinə mənsub olan müsəlmanlar üçün isə Kərbalada qətlə yetirilmiş Məhəmməd Peyğəmbərin nəvələri və İmam Əlinin oğlanları İmam Hüseyn və İmam Həsənin matəm günü günü kimi qəbul olunur və həmin gün əzadarlıq edilir. Əhalisinin əksəriyyətinin şiə məzhəbində olan Qarabağ və Şərqi Zəngəzurda Məhərrəmlik mərasiminə Azərbaycanın digər bölgələri ilə müqayisədə daha fərqli yanaşılmışdır. Qarabağda məhərrəmlik ayına bir neçə gün qalmış məscidlər və "Aşura" matəmi keçiriləcək meydan təmizlənər, hamı məscidə gəlib növhə oxuyanlara qulaq asardı. Növhəxanlar professional xanəndələr olmuşdur. Bəzən də yaşlı xanəndələr günahlarından təmizlənib savab qazanmaq üçün novhə oxuyardılar. İmamlar haqqında oxunan növhələri isə, əsasən xanəndəlik fikrində olanlar ifa edərdilər. Hüznlü növhələrin bəziləri "Bayatı-Qacar", "Qatar" muğamları və bir parça ağır təsniflər üstündə qurulardı. Qarabağın ən məşhur növhəxanları Şuşa şəhər sakinləri Sərbaf İbrahim və Sərbaf Həbib olmuşlar. Qarabağ və Şərqi Zəngəzurda "Aşura" günündə "şaxsey-vaxsey" şivəni edilirdi.

Məhərrəmlik mərasiminin keçirilməsi məqsədilə hər bir kənddə palıd ağacından "Qətl ağacı" adlandırılan ağaclar başdırır, onu müqəddəs hesab edir, hətta and içirdilər. "Qətl ağacı" əhali arasında çox zaman "ələm ağacı" kimi də adlandırılırdı. Bu ad dəmirdən əl şəklində düzəldilmiş və ağacın başından asılmış amuletlə (əl) bağlı olmuşdur. Adətən "ələm ağacı"nı kəndin ən hörmətli ağsaqqalı basdırardı.

Şərqi Zəngəzurun Kəlbəcər rayonunun Qaraçanlı kəndinin "Ağcaqız" və "Dikyurd" yaylaqlarında 4 yerdə belə "qətl ağacı" basdırılmışdı. "Dikyurd" yaylağında basdırılmış "ələm ağacı" çürümədən 35 il orada qalmışdı *(İnf.: Camalov İ).* "Aşura" günündə camaat oraya toplaşaraq zəncirlə başlarına və sinələrinə döyür, "ağ köynək" olurdu. Əksər vaxtlarda isə niyyət edib "ağ köynək" olmaq istəyənlərin alnını molla ülgüclə çərtir və təzə köynək alından axan qana bulaşırdı (İnf.: Bayramov). "Aşura"da "ələm ağacı"na nəzir bağlayar, "imam ehsanı" verərdilər. Adət üzrə toplaşanlara "imam ehsanı" kimi şərbət, yuxanın arasına bükülmüş halva və hədik paylanardı (İnf.: Zülfiqarova). Qarabağda - Füzuli rayonunda "ələm ağacı" yalnız Horadiz və İşıqlı kəndlərində olmuşdur. "Aşura" günü oraya hər yerdən adamlar axışar və "ağ köynək" olardılar. Kənddə niyyət tutanlar camaata ehsan kimi şərbət paylayar, başqa yerdən gələn adamları evlərə apararaq süfrə açar, imam ehsanı verərdilər (İnf.: Zülfiqarova). Burada nəzir gətirənlər üçün dəvə və atın üstündə kəcavə qurulardı. Nəziri olanlar pullarını kəcavəyə atar, xəstə və şikəstləri isə kəcavənin altından keçirərdilər. Parça və yaylıqdan edilmiş nəziri isə "ələm ağacı"na bağlayardılar. Hətta körpə uşaqlar da "ağ köynək" edilirdi (İnf.: Camalov). Horadizdə "ələm ağacı"nın qarşısında "Qasım otağı" da qurardılar. "Qasım otağı"nı dar, boruşəkilli düzəldir, hər iki başını açıq saxlayırdılar. Xəstə uşaqlar həmin borunun bir başından içəri salınar, sürünərək borunun o biri başından çıxardı. Nəzirlər isə "Qasım otağı" nın üstünə yığılardı (İnf.: İsmayılova). Şərqi Zəngəzurun Laçın və Qubadlı rayon sakinləri "Aşura" günündə Ağdam şəhərinə gedər, oradakı məsciddə təşkil olunan "şaxsey-vaxsey" şivən mərasimində iştirak edərdilər (İnf.:Bəndəliyeva). Çox

zaman isə Məhərrəm ayında bu bölgələrə başqa bölgələrdən mərsiyəxanlar gələr, əllərində ağaca bərkidilmiş dəmir ələmlər gəzdirərək Kərbala hadisələrini təsvir edən mərsiyələr söyləyib adamları daha da coşdurardılar (İnf.: Həsənova).

Bu fakta Ə.Ələkbərovun həmin rayonlarda apardığı tədqiqatlarında da rast gəlinir (Alekperov, 143). Göründüyü kimi, Novruz, Ramazan, "Xıdır Nəbi" , Qurban xalq bayramları ilə bağlı rəngarəng ayin, ritual oyun və əyləncələr və inanclar mövcud olmuş, onların bəziləri unudularaq yaddaşlardan silinmiş, bəziləri isə nəsillərdən-nəsillərə ötürülərək xalqın yaddaşında əbədiyyən yaşamışdır.

**Nəticə**

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti bərqərar olduqdan sonra, sovet maşınının dini-mənəvi dəyərlərimizə qarşı yönəldilmiş qəddar siyasəti - ateizm təbliğatı altında bayram və dini mərasimlərin keçirilməsinə yasaq qoyduğu mürəkkəb dövrdə  də Qarabağ və Şərqi Zəngəzurda Novruz, habelə Qurban və Ramazan bayramları unudulmamış, əhali həmin bayramları gizli şəkildə olsa belə özünün əziz günlərindən biri kimi qoruyub saxlamışdır. 28 Sentyabr - 2 oktyabr 2009-cu il tarixində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş UNESCO-nun Qeyri - Maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 4-cü Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Novruz çoxmillətli nominasiya (Azərbaycan, Hindistan, İran, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan) kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir. 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasında Azərbaycan Respublikasının təşəbbüsü ilə 21 mart "Beynəlxalq Novruz Günü" elan olunmuşdur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli-mənəvi irsimizin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi istiqamətində görülən ardıcıl tədbirlərin nəticəsində ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulması, dini mərasimlərin keçirilməsi üçün lazımi şərait yaradılmışdır.Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli  "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən

Qurban, Ramazan ümumxalq bayramları sırasına daxil edilmiş, dövlət səviyyəsində qeyd olunmağa başlanmış və həmin günlər qeyri-iş günü elan olunmuşdur. Uzun illər ibadət ocaqlarının, dini icmaların fəaliyyətinə, dini ayinlərin icrasına, dini təyinatlı ədəbiyyatın nəşrinə və yayılmasına qoyulmuş qadağalar aradan qaldırılmış, yeni məscidlər inşa edilmiş və dini təhsil müəssisələri yaradılmışdır. Azərbaycanda, o cümlədən Qarabağda və Şərqi Zəngəzurda əhali milli və dini bayramlarını azad, sərbəst qeyd etmək hüququ əldə etmiş, müqəddəs ziyarətgahlara baş çəkmək üçün onlara hər cür şərait yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili", onun məntiqi davamı kimi 2017-ci ili "İslam həmrəyliyi ili" elan etməsi, ölkəmizdə müxtəlif millətlərin, dini konfessiyaların dinc-yanaşı yaşamasının bariz nümunədir.Son illərdə Azərbaycanda Məhərrəm ayının Həzrət Peyğəmbərin buyurduğu kimi, müharibə və münaqişələrin qadağan edildiyi ay olduğu səciyyələndirilmiş, əzadarlıq məclislərində zəncir vurub baş yarmaq, sinə döyüb bədənə xəsarət yetirmək kimi hərəkətlər aradan qalxmışdır. Azərbaycanın bütün bölgələrində, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda əzadarlıq əvəzinə könüllü qanvermə aksiyalarının təşkili kimi humanist ənənələr gerçəkləşmiş və Kərbala şəhidlərinin xatirəsinə qanvermə aksiyasında toplanan qan ehtiyatı talassemiya, hemofiliya və leykoz, irsi xəstəliklərdən əziyyət çəkən minlərlə xəstəyə və uşaqlara həyat bəxş etmişdir.

## Ədəbiyyat

Abdullayev, B. (1989). *Haqqın səsi.* Azərbaycan Dövlət Nəşriyyatı.

Abdullayev, B. A. (2005). *Azərbaycan mərasim folkloru*. Qismət.

Alekperov, A. K. (ty). Pervaya ekspeditsiya Kurdistan. NAIIAN: F.1, opis' 2, d.513.

Alekperov, A. K. (1960). *Issledovaniya po arkheologii i etnografii Azerbaydzhana*. Izdatel'stvo AN Azerbaydzhana.

Alekperov, A. K. (ty). K voprosu ob izuchenii kul'tury kul'tury. NAIIAN: F. 1, opis' 1, d.114.

Aristova, T. F. (1966). *Krdy Zakavkaz'ya.* Nauka.

*Azərbaycan folkloru antologiyası.* (1968). II kitab (Toplayanı Ə. Axundov). Azərbaycan EA nəşriyyatı.

Cəfərzadə, Ə. (2001). Unudulmuş əziz günlərimizdən. *Azərbaycan qəzeti.*

Əlibəyzadə, E. (1998). *Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi* (İslamaqədərki dövr). B Gənclik.

Hüseynoğlu, Kamil (2010, mart 21). Novruzun qədim elmi qaynaqları. *Azərbaycan qəzeti.*

Xəlilov, P. (1993). *Kitabi-Dədə Qorqud - İntibah abidəsi.* Gənclik.

*Kitabi-Dədə Qorqud.* (1988). Yazıçı.

Qasımlı, M. (1998). Oyanış - qurtuluş bayramı. *Azərbaycan qadını dərgisi,* 3, 12-15.

*Quran.* (1992). ət-Tövbə surəsi (Ərəb dilindən tərcümə edənlər: Z. M. Bünyadov və V. M. Məmmədəliyev).

*Qurani-Kərim* (1993). (Nəriman Qasımoğlunun tərcüməsi ilə).Azərbaycan nəşriyyatı.

Məhərrəmova, S. (2020). *XIX əsr və XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq bölgəsinin tarixi-etnorrafik tədqiqi.* Apostrof-A.

Bayramov Şahmar, Laçın rayonu, 1938-ci il təvəllüdlü.

Bəndəliyeva Qızxanım, Laçın rayonu, 1930-cu il təvəllüdlü.

Camalov İsmayıl, Kəlbəcər rayonu, 1940-cı il təvəllüdlü.

Çıraqov Kamil, Kəlbəcər rayonu, 1939-cu il təvəllüdlü.

Əliyeva Qəmzə, Şuşa şəhəri, 1940-cı il təvəllüdlü.

Fətəliyev Əhməd, Kəlbəcər rayonu, 1926-cı il təvəllüdlü.

Həsənova Quba, Laçın rayonu, 1935-ci il təvəllüdlü.

Vol.11 /Num.4
August 2024

İsmayılova Miniş, Füzuli rayonu, 1927-ci il təvəllüdlü.

İsmayılova Tahirə, Füzuli rayonu, 1929-cu il təvəllüdlü.

Şəkərəliyev Oruc, Qubadlı rayonu, 1935-ci il təvəllüdlü.

Şəkərəliyeva Kübra, Qubadlı rayonu, 1940-cı il təvəllüdlü.

Zülfiqarova Şövkət, Füzuli rayonu, 1940-cı il təvəllüdlü.